# Qanunvericilik, profilaktika və beynəlxalq tərəfdaşlıq

*Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 2013-cü il tarixli qətnaməsinə əsasən, hər il 30 iyul "İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə Günü" kimi qeyd olunur. Bu gün insan alveri ilə mübarizədə qlobal həmrəyliyin simvolu olaraq hökumətlərin və vətəndaş cəmiyyətlərinin məsuliyyətini bir daha gündəmə gətirir.*




İnsan alveri XXI əsrin ən təhlükəli və sürətlə yayılan transmilli cinayətlərindən biri olaraq beynəlxalq ictimaiyyətin qarşısında ciddi problem kimi qalmaqdadır. Qlobal miqyasda illik dövriyyəsi 150 milyard ABŞ dollarını ötən bu cinayət fəaliyyəti insan hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnir, sosial ədalət və hüquq mühafizə institutlarına birbaşa təhdid yaradır. Beynəlxalq hesabatlara əsasən, insan alverinin qurbanları qadınlar və uşaqlar olmaqla yanaşı, kişiləri də əhatə edir. Təkcə 2021-ci ildə aşkar edilmiş təqribən 25 milyon insan alveri qurbanının yarısı yetkin qadınlardan, üçdəbiri isə uşaqlardan ibarət olub. Bu sosial bəla ilə mübarizə dünyanın inkişaf etmiş əksər ölkələrində prioritet dövlət siyasəti səviyyəsinə qaldırılıb.

İnsan alverinin qarşısının alınması üçün hərtərəfli hüquqi və institusional çərçivələr formalaşdırılır, qabaqlayıcı tədbirlər sistematik şəkildə icra olunur. Bu baxımdan, Azərbaycan Respublikasının da beynəlxalq öhdəliklərə uyğun şəkildə atdığı addımlar diqqətəlayiqdir. Ölkəmizdə insan alverinə qarşı mübarizə istiqamətində kompleks tədbirlər həyata keçirilir. Hüquqi-normativ bazanın təkmilləşdirilməsi istiqamətində qəbul edilmiş əsas sənədlərdən biri də "İnsan alverinə qarşı mübarizə haqqında" qanundur. Sənəd insan alverinə qarşı dövlət siyasətinin hüquqi əsaslarını, eyni zamanda bu cinayətin qurbanı olan şəxslərin hüquqi statusunu və müdafiə mexanizmlərini müəyyənləşdirir. Qanunun tələblərinə uyğun olaraq Azərbaycan dövləti insan alveri ilə mübarizədə preventiv tədbirlər, qurbanların müdafiəsi və təqsirkarların məsuliyyətə cəlb olunması istiqamətində üçtərəfli yanaşmanı tətbiq edir. Prezident İlham Əliyevin 2020-ci ildə imzaladığı sərəncamla təsdiq edilən "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" bu sahədə aparılan işlərin sistemli və məqsədyönlü həyata keçirilməsinə hüquqi zəmin yaradır. Fəaliyyət Planı çərçivəsində dövlət qurumları, qeyri-hökumət təşkilatları və beynəlxalq tərəfdaşlar arasında əməkdaşlıq genişləndirilir, cəmiyyətin maarifləndirilməsi və insan alveri ilə bağlı risklərin azaldılması istiqamətində ardıcıl tədbirlər görülür. İnsan alveri əsasən zor tətbiqi, hədə-qorxu, aldadılma, psixoloji və ya iqtisadi asılılıq, eləcə də sosial zəiflik vəziyyətindən sui-istifadə formasında həyata keçirilir. Əksər hallarda cinayətkar qruplar şəxsləri əmək və ya cinsi istismara məruz qoymaqla böyük maliyyə vəsaiti əldə edirlər. Azərbaycan kontekstində insan alveri ilə bağlı cinayətlərin strukturunda məcburi əmək faktları nisbətən az yer tutur. Pandemiya dövründə dünya miqyasında işsizlik və iqtisadi çətinliklər səbəbilə məcburi əmək hallarının artdığı müşahidə olunsa da, Azərbaycan bu tendensiyanı ciddi şəkildə əks etdirməyən ölkələr sırasındadır. 2021-ci ildə aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində aşkarlanmış 3 məcburi əmək faktında zərərçəkmişlərin kənd təsərrüfatı sahəsində qeyri-insani şəraitdə istismara məruz qaldığı müəyyən edilib. Bununla yanaşı, Dövlət Əmək Müfəttişliyi Xidmətinin yoxlamaları nəticəsində 267 şəxsin əmək müqaviləsi olmadan çalışdığı aşkar olunaraq qanun pozuntusuna yol verən işəgötürənlərə ümumilikdə 1.339.300 manat məbləğində cərimə tətbiq edilib.




İnsan alveri ilə yanaşı, uşaq əməyinin istismarı müasir dövrdə beynəlxalq hüququn və insan hüquqları institutlarının qarşısında duran əsas çağırışlardan biridir. Problem təkcə fərdi faciələrlə məhdudlaşmır, həm də sosial ədalətin, insan ləyaqətinin sarsıdılmasına səbəb olur. Xüsusilə uşaq əməyinin istismarı daha dərin mənəvi-psixoloji və sosial nəticələr doğurduğundan bu sahədə görülən tədbirlərin effektivliyi birbaşa olaraq cəmiyyətin gələcəyinə təsir edir. Azərbaycanda da bu problem gündəlik reallıqlardan biridir. 2021-ci ildə aparılmış monitorinqlər nəticəsində küçələrdə işləyən, dilənçiliyə cəlb edilən, ailə nəzarətindən və ictimai-pedaqoji təsirdən kənarda qalan 450 uşaq aşkarlanıb. Bu hallar uşaq hüquqlarının ciddi şəkildə pozulmasına işarə etməklə yanaşı, ailə institutunun zəifləməsi, yoxsulluq, valideyn məsuliyyətsizliyi və maarif çatışmazlığı kimi kompleks sosial səbəblərin nəticəsi kimi çıxış edir. Aşkarlanmış hallarla bağlı hüquqi reaksiya verilib, 75 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb. Ötən il isə 206 insan alveri cinayəti qeydə alınıb. İllik məlumatda qeyd edilib ki, cinayətlərin 161-i cinsi istismar, 44-ü insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlər, biri isə məcburi əməklə bağlı olub. Həmin faktlar üzrə 15 cinayət işi başlanılaraq 16 şəxs (13 qadın, 3 kişi) təqsirləndirilən qismində cəlb edilib. Hesabat dövründə ümumilikdə 13 cinayət işinin (6-ı ötən illərin) istintaqı tamamlanıb, 14 nəfər (11-i qadın, 3-ü kişi) məhkəmə məsuliyyətinə verilib, insan alverçilərinin 11-i haqqında ittihamedici hökmlər çıxarılıb.

Bu cür halların qarşısının alınması üçün sistemli sosial müdafiə, psixoloji dəstək və icbari təhsil nəzarəti zəruridir. Ümumiyyətlə, Azərbaycanda insan alveri ilə bağlı qeydə alınan cinayətlər ümumi cinayətlərin cəmi 0,6 faizini təşkil etsə də, bu, təhlükənin miqyasını kiçiltmir. Bu baxımdan, profilaktik tədbirlər, ictimai nəzarət və institusional mexanizmlərin gücləndirilməsi bu sahədə uğurun əsas meyarları sayılır. Maarifləndirmə, risklərin azaldılması, sosial nəzarət mexanizmlərinin qurulması və institusional şəbəkənin genişləndirilməsi də dövlət strategiyasının əsas dayaqları sırasındadır. Bu çərçivədə, uşaq nikahlarının qarşısının alınması, övladlığa götürülmüş, qəyyumluğa və himayəyə verilmiş uşaqların ailələrində nəzarətin gücləndirilməsi, internet və KİV-də monitorinqlərin aparılması, təhsildən yayınan uşaqlara nəzarət sisteminin qurulması kimi çoxşaxəli tədbirlər həyata keçirilir.

Azərbaycan insan alverinin qarşısının alınması üzrə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq, təcrübə mübadiləsi və birgə proqramların həyata keçirilməsi davam etdirilir. Bu istiqamətdə görülən tədbirlərin nəticəsi olaraq ABŞ Dövlət Departamentinin insan alveri ilə mübarizəyə dair illik hesabatlarında Azərbaycan 3 il ard-arda ikinci sıra nəzarət ölkələr sırasında qərarlaşıb. Bu, ölkənin beynəlxalq qiymətləndirmə indikatorları üzrə müəyyən irəliləyişə nail olduğunu, institusional və hüquqi gücləndirmənin uğurla həyata keçirildiyini göstərir.

Ölkəmizin insan alveri ilə mübarizə strategiyasında zərərçəkmişlərin hüquqlarının bərpası və sosial adaptasiyası da prioritet istiqamət kimi müəyyən edilib. Bu çərçivədə insan alveri qurbanlarının aşkarlanması, sığınacaqla təmin olunması, peşə hazırlığı və işə inteqrasiyası, reabilitasiya və psixoloji dəstəklə təmin olunması tədbirləri həyata keçirilir. Hökumət qurbanların reinteqrasiyası üçün dövlət və qeyri-hökumət təşkilatları ilə birgə proqramlar icra edir. Bu, insan alverinin uzunmüddətli sosial nəticələrinin aradan qaldırılması baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycanda insan alverinə qarşı mübarizə çərçivəsində qanunvericilik bazası təkmilləşdirilib, milli proqramlar qəbul edilib. Ölkəmiz, eyni zamanda bir sıra mühüm beynəlxalq sənədlərə - 2000-ci il tarixli BMT-nin "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokolu"na (Azərbaycan - 2003-cü ildə), 2005-ci il tarixli Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası"na (Azərbaycan - 2010-cu ildə) qoşulub. Ölkəmiz insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəlikləri üzərinə götürməklə yanaşı, hüquqi-himayə mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasına da zəmin yaradıb.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 20 iyul (№ 156).- S.6.